NƏRGİZ MƏMMƏDOVA
*Bakıdakı 248 saylı məktəbin tarix müəllimi*

# V SINIFDƏ "ATA YURDU" KURSUNUN TƏLIMINDƏ ILLÜSTRASIYALARLA IŞIN TƏŞKILI

Hər bir dərslik, hər şeydən əvvəl, müəyyən informasiyanın daşıyıcısıdır. Dərslikdəki təlim materialları sadə və aydın şəkildə verilir ki, bu da mənimsəmə prosesini səmərəli təşkil etməyə şərait yaradır. Dərsliyin mətnindəki illüstrativ materiallar isə xüsusi əhəmiyyət kəsb edir. Təcrübə göstərirki, illüstrasiyalardan təlim prosesində istifadə üçün geniş imkanlar açılmışdır:

a) yeni təlim texnologiyalarının yayılması nəticəsində dərsliyin illüstrativ materiallarına bilik mənbəyi kimi yeni münasibətin formalaşması,

b) illüstrasiyaların təlimin məzmunu ilə daha çox əlaqələndirilməsi,

Orta məktəb dərsliklərinin mətninə münasibətə görə illüstrativ material 3 qrupa bölünür:

a) əsas (aparıcı) illüstrasiyalar;

b) eyniqiymətli (eynimənalı) illüstrasiyalar ;

c) mətnə xidmət edən illüstrasiyalar.

1. Əsas (aparıcı) illüstrasiyalar təlim materialının məzmununu açıqlayır, əsas mətni əvəz edir. Mövcud tarix dərsliklərimizdə verilən bəzi xəritələr bu cür illüstrativ materiallara misal ola bilər. Bu cür illüstrasiyalardakı «əyani obyektlərin özündən şagirdlər bilik əldə edirlər».

2. Eyniqiymətli (eyniəhəmiyyətli) illüstrasiyalar əsas mətnlə bir sırada durur. Onlar təlim materialının məzmununun daha dərindən və səmərəli mənimsənilməsinə xidmət edir. Bu illüstrasiyalar elmi-idraki xarakter daşıyır. Onun bu xarakteri müxtəlif şəkildə təzahür edə bilər. Tarix dərsliklərində mürəkkəb anlayışları formalaşdırarkən, yaxud-sosial-iqtisadi hadisə və təzahürlərin təhlilində belə illüstrasiyalardan istifadə edilir.

3. Mətnə xidmət edən illüstrasiya mətnin və mətndənkənar komponentlərin məzmununu tamamlayır, konkretləşdirir, açıqlayır və emosionallığını gücləndirir. Mövcud tarix dərsliklərimizdə bu illüstrasiyalar üstünlük təşkil edir. Daha çox süjetli (bədii-obrazlı) və sənədli illüstrasiya şəklində dərsliklərə daxil edilir.

İllüstrasiyalardan bilik mənbəyi kimi istifadə edilərkən şagirdlərin fəal işi müsahibə, illüstrasiyanın müstəqil təhlilini tələb edən tapşırığın yerinə yetirilməsi formasında təşkil oluna bilər.

A.A.Vagin illüstrasiya üzrə müsahibə zamanı istifadə edilən sualların qoyuluşuna verilən tələbləri aşağıdakı qaydada müəyyənləşdirmişdir.

«a) illüstrasiyada təsvir olunanları diqqətlə nəzərdən keçirməyə məcbur etməlidir;

b) təsvir olunandan cavab tapmağa kömək etməlidir;

c) əyani təsvirdən şagirdin bilik almasına kömək etməlidir;

ç) illüstrasiyanın məzmununun təhlilini və ümumiləşdirilməsini tələb etməlidir;

d) imkan daxilində, kiçik idraki məsələlər formasında tərtib edilməlidir.»(1, 191-192).

İllüstrasiyalardan dərsliyin mətnini konkretləşdirmə vasitəsi kimi də istifadə edilir.

A.A.Vagin aşağı siniflərdə illüstasiyaların təhlilindən mətnin oxunmasına keçməyi məqsədəuyğun hesab edir:

«a) isllüstrasiyadan müstəqil olaraq əyani obrazlar formasında məlumat alır və nəticələr çıxarırlar;

b) mətni oxuyarkən illüstrasiyanın təhlili zamanı yaranmış obrazları şüurda yenidən canlandırırlar.» (2, 193).

Beləliklə, şagirdlər oxuduqları mətndəki hadisə, təzahür və şəxsiyyətləri canlı şəkildə təsəvvürə gətirməyi öyrənirlər.

İllüstrasiyalardan biliklərin möhkəmləndirilməsi və tətbiqi üçün aşağıdakı şəkildə istifadə edilir:

a) dərsdə materialın möhkəmləndirilməsi zamanı illüstrasiyaya aid sadə tapşırıqların verilməsi;

b) təkrar – ümumiləşdirici dərslərdə illüstrasiyalardan istifadə edilməsi;

c) illüstrasiyalar əsasında təkrar – ümumiləşdirici xarakterli ev tapşırıqlarının verilməsi.

Epizodik hekayələrin təlimi prosesində dərsliyin illüstrasiyaları ilə iş nümunələrinə pedaqoji ədəbiyyatda çox rast gəlmək olur. Məsələn, hələ keçən əsrin 70-ci illərinin əvvəllərində tarixdən epizodik hekayələrin öyrənildiyi dərslərdə dərsliyin illüstrasiyası üzərində şagirdlərin müstəqil işinin təşkili təsvir etmişdir. (1,3, 150) Bu zaman illüstrasiya ilə iş təcrübəsi müəllifi tədqiq etdiyi problemlə – müqayisə ilə əlaqədar maraqlandırmışdır. Epizodik hekayələrin tədrisi zamanı illüstrasiyalardan istifadə prosesində işin sistemi isə bu vaxta qədər tədqiq edilməmişdir.

Nümunə üçün deyək ki, «Böyük xeyriyyəçi» hekayəsi öyrənilərkən müəllim şagirdlərə Bakıda qız məktəbinin azılması haqqında informasiyanı verir. Bu zaman müəllim qız məktəbi ilə bağlı illüstrasiyaları dərsin məzmununa cəlb edir. Ona görə ki, həmin illüstrasiyalar mətnin məzmununu tamamlamağa xidmət edir. İllüstrasiyaların təhlili zamanı şagirdlərin zehni fəallığına nail olmaq üçün müəllim müxtəlif xaralterli sual və tapşırıqlardan istifadə edir. Məsələn, «H.Z.Tağıyevin qız məktəbində dərs» illüstrasiyasını təhlil etmək üzün aşağıdakı məzmunda sual və tapşırıqlardan istifadə edir.

- şəklə əsasən dərsin hansı fənnə aid olduğunu müəyyən edin;
- dərs fənn kabinetində, yoxsa sinif otağında keçilir? Öz fikrinizin doğruluğunu sübut etmək üçün hansı dəlilləri gətirə bilərsiniz?
- sinifdə gördüklərinizi danışın;
- şəkildə müəllimi tapın və göstərin;
- şagirdlər necə geyinmişlər? Onların görkəmini təsvir edin;
- müəllimin masasının kənarında oturan, sizcə, kimdir?
- tərbiyəçinin dərslərdə oturması nəyi göstərir?
- şəkil əsasında qız məktəbində dərslərin keçirilməsi qaydası haqqında danışın.

«H.Z.Tağıyevin qız məktəbində əmək məşğələsi» illüstrasiyasının təhlili məqsədi ilə sinfə aşağıdakı məzmunda tapşırıq verilmişdir: «Şəkil əsasında qız məktəbində əmək məşğələsinin keçirilməsi qaydasını müəyyən edin».

Müəllimin sual və tapşırıqları əsasında şagirdlər 2 şəkli müqayisə edir, adi dərs və əmək məşğələsinin keçirilməsindəki ümumi cəhətləri və fərqləri müəyyənləşdirirlər.

Şagirdlər verilən tapşırığı iki istiqamətdə aparmışlar:

1) dərs və əmək məşğələlərinin keçirilməsində ümumi cəhətləri (qaydaları) müəyyən etmişlər;

2) adi dərslə və əmək məşğələsinin ümumi cəhətlərini, və fərqli cəhətlərini müəyyən etmişlər.

Qız məktəbi haqqında dərslikdəki digər illüstrasiyalara aid ev tapşırığı aşağıdakı variantlarda verilir:

1. «Qız məktəbinin xarici görünüşü, mətbəxi və yataq otağı haqqında» qısa məlumat hazırlayın.

2. «Qız məktəbində hansı qaydalar vardı?» mövzusunda məlumat hazırlayın.

3. Dərsdə aldığınız biliklərdən və dərslikdəki illüstrasiyalardan istifadə edərək qız məktəbi haqqında hekayə hazırlayın.

4. «Qız məktəbi necə məktəb idi?» mövzusunda kiçik material hazırlayın.

"Böyük xeyriyyəçi" hekayəsinin öyrənilməsi prosesində şagirdlər illüstrasiyaların məzmunu haqqında informasiyanı müəllimin izahından alırlar. Ev tapşırığı kimi şagirdlərə «Qız məktəbi necə məktəb idi?» mövzusunda məlumat hazırlamaq tapşırılmışdır.

Cavabları qiymətləndirmək üçün meyar müəyyənləşdirilmişdir. Bu zaman «İllüstrasiyalar əsasında şagirdlər qız məktəbi üçün ümumi qaydaları mənimsətmək lazımdır». Şagirdlərə ev tapşırığı verilərkən aşağıda sadalanan tələblər əsas götürülmüşdür.

- şagirdlər dərsdə və əmək məşğələlərində vahid formada (geyimdə) olmalı idilər;
- dərslər sinifdə, əmək məşğələsi isə xüsusi təchiz edilmiş otaqda keçirilməli idi;
- dərs və məsğələlərdə müəllimlə yanaşı, tərbiyəçi də iştirak etməli idi;
- şagirdlərə yemək hazırlamaq öyrədilməli idi;
- şagirdlər mətbəxdə ayrıca geyimdə və növbə ilə olmalı idilər;
- şagirdlər gecə də məktəbdə qalmalı və ümumi yataq otağında yatmalı idilər;
- məktəbdə nizam-intizam qaydalarına əməl olunmalı idi;
- təmizliyə riayət olunmalı idi.

«Qız məktəbi necə məktəb idi?» mövzusunda məlumat hazırlamaq tapşırığı verilən siniflərdə şagirdlərin yazı işləri müəyyən edilmiş meyarlar əsasında yoxlanmış və qiymətləndirilmişdir.

İllüstrasiyanın müvafiq mətnin qiraətindən əvvəl müsahibə vasitsəi ilə təhlil üsulundan istifadə edilməsi də səmərəli olmuşdur.

«Molla Nəsrəddin» hekayəsi öyrənilərkən «Molla Nəsrəddin» jurnalının üz qabığındakı şəklin təhlili üçün müsahibə aparılmışdır:

- Şəkildə gördüklərinizi danışın.
- Şəkildə gördükləriniz kimlərdir?
- Adamları yatmış göstərməklə jurnal nə demək istəyirdi?
- Bu adamların yuxusunu «qəflət yuxusu» (H. Zərdabi) adlandırmaq olarmı?
- Gərnəşən adamları göstərməklə jurnal nə demək istəyirdi?
- Sizcə, şəkil və «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!» sözləri ilə C.Məmmədquluzadə adamlara nə demək istəyirdi?
- «Molla Nəsrəddin» jurnalı ilə «Əkinçi» qəzeti arasında oxşarlığı tapın.
- «Əkinçi» qəzeti adamları qəflət yuxusundan oyanmağa necə çağırırdı? Bu zaman qəzet nədən istifadə edirdi?
- «Molla Nəsrəddin» jurnalı hansı üsullarla xalqı oyanmağa çağırırdı?

Müsahibənin sonunda şagirdlər aşağıdakı nəticəyə gəlirlər: şəkildəki adamlar savadsız olduqları üçün avamlıq, qəflət yuxusundadırlar. Xalq savadsız olanda avam olur. Xalqı avamlıq yuxusundan oyatmaq üçün onu savadlandırmaq lazımdır. «Molla Nəsrəddin» jurnalı da, «Əkinçi» qəzeti kimi, xalqı qəflət yuxusundan oyanmağa, yəni savadlanmağa çağırırdı. «Əkinçi» qəzeti bunu sözlə, misal çəkməklə edirdi. «Molla Nəsrəddin» isə bu məqsədlə gülməli şəkil və sözlərdən istifadə edirdi.

Bu cür iş sistemində (mətnin qiraətindən əvvəl illüstrasiya üzrə müsahibə keçirilməsi prosesində) zahirən mətndə anlaşılmaz görünən bəzi cəhətlər də aydınlaşır: hekayənin əvvəlində «Molla Nəsrəddin» jurnalı alan adamın hərəkətləri və sözləri şagirdlərə daha da aydın olur. Onlar başa düşürlər ki, H.Zərdabi də, C. Məmmədquluzadə kimi

xalqının avamlıq yuxusundan oyanmasını istəyirdi. Təsadüfi deyildir ki, şagirdlərdən biri öz cavabında onu illüstrasiyadakı «gərnəşib durmuş» adamlardan biri hesab edərək qeyd edir ki, jurnal «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım» sözləri ilə bu cür adamlara müraciət edirdi.

«Dahi Sabir» hekayəsi üzrə dərsdə isə illüstrasiyalardan biliklərin möhkəmləndirilməsi və tətbiqi məqsədilə istifadə olunmuşdur. Şagirdlərin işi 2 əsas illüstrasiya- «Millət necə tarac olur-olsun..» və «Oxutmuram, əl çəkin» üzərində təşkil edilmişdir. Ictimai məna etibarilə daha geniş məzmuna malik olduğundan «Millət necə tarac olur-olsun..» illüstrasiyasının təhlili qəsdən ikinci sıraya kezirilmişdir. Əvvəlcə şeir haqqında dərsliyin məlumatı izah edilmişdir. Sonra isə bu şeirdən verilmiş parçalar təhlil olunmuşdur. Şagirdlər əvvəlcə «Oxutmuram, əl çəkin» illüstrasiyasını təhlil etməli olmuşlar. Müsahibə üçün suallar tərtib edilərkən nəzərə alınmışdır ki, şeirin-şəklin məzmunu haqqında şagirdlərin artıq kifayət qədər məlumatı vardır. Müsahibə üçün aşağıdakı sual və tapşırıqlardan istifadə olunmuşdur:

- Şəkildə gördüklərinizi danışın.
- Papaq qoymuş kişilər kimdir?
- Onlar nə istəyirlər?
- Atanın öz oğlunu məktəbə qoymadığını nədən görmək olar?
- Uşaq nə üçün ağlayır? Sizcə, uşaq düyüldüyü üçün, yoxsa oxumağa qoymadıqları üçün ağlayır?
- Şeirdəki hansı misra uşağın oxumaq istədiyini sübut edir?
- Şeir parçasından istifadə edərək deyin: ata nə üçün öz oğlunu oxutmaq istəmir?
- Aşağı siniflərdən öyrəndiklərinizi yada salın: Məhəmməd peyğəmbər (**s.a.s.**) elmə, savada necə qiymət vermişdir?
- Elə isə atanın bu hərəkətinə nə ad vermək olar?
- Atanın avamlığının səbəbi nədir?
- Şair atanın avamlığını nə üçün tənqid edir? Şair bununla nəyə nail olmaq istəyir?
- Yadınıza salın: Mirzə Fətəli nə üçün xalqın savadlanması uğrunda mübarizə aparırdı? Xalqın savadlanması nə üçün lazımdır?
- Bu şeir xalqın azadlığa nail olması üçün Mirzə Fətəlinin qarşıya qoyduğu hansı vəzifə ilə əlaqədardır?
- Mirzə Fətəli ilə M.Ə. Sabir arasında oxşarlıq nədən ibarətdir?

Sonra «Millət necə tarac olur-olsun..» illüstrasiyasının təhlilinə kezilir. Təhlil zamanı şagirdlərin fəallığına nail olmaq üçün olnarın zehni fəaliyyəti aşağıdakı sual və tapşırıqlar vasitəsilə istiqamətləndirilir:

- Şəkildə gürdüklərinizi danışın.
- Qabaqda gürdüyünüz 3 kişi harada oturmuşdur?
- Kənardakı adamlar hansı vəziyyətdə zəkilmişlər?
- Qadın nə edir?
- Düyülən adamla düyən adam arasındakı fərqləri tapın.
- Varlı kişilərin ətrafdakı yoxsulların vəziyyəti ilə maraqlanmadığını nədən görmək olar?
- Nə üçün onlar ətrafdakı yoxsullarla maraqlanmırlar?
- Şeir kimin dilindən deyilir?
- Yatanlar və yatmışlar deyəndə kimlər nəzərdə tutulur? Burada hansı yuxudan söhbət gedir?
- Nə üçün onlar yatanların oyanmasına, yatnışların kiminsə oyatmasına razı deyillər? Nə üçün onlar xalqın avam qalmasını istəyirlər.
- Xalqın şəkildəki kimi yaşaması kimin xeyrinədir?

- "Molla Nəsrəddin" jurnalının üz qabığında olan şəkildəki yatanlarla şeirdəki "yatanlar" arasında nə əlaqə vardır?
- "Molla Nəsrəddin" jurnalı xalqı, müəlmanları nəyə zağırırdı?
- Oyananlardan bəziləri "Molla Nəsrəddin" in ardınca, bəziləri isə şəkildəki kimi varlıların ardınca gedərsə, bu xalqı yekdil hesab etmək olarmı?
- H.Z.Tağıyev qız məktəbini nə üçün azdırmışdır?
- Mirzə Fətəli nə üçün xalqı yekdil olmasını istəyirdi?
- Sizcə, nəyə gürə Sabir "Molla Nəsrəddin" jurnalında fəal zıxış edirdi?
- Sizcə, «Millət necə tarac olur-olsun..» şeiri xalqın azadlığa nail olması üçün Mirzə Fətəlinin qarşıya qoyduğu hansı vəzifələrlə əlaqəlidir?
- Mirzə Fətəli, H.Zərdabi, H.Z Tağıyev, C.Məmmədquluzadə və M.Ə.Sabir arasındakı oxşarlıq nədən ibarətdir?

Müsahibənin sonununda şagirdlər aşagıdakı nəticəyə gəlirlər: Mirzə Fətəli, H.Zərdabi, Tağıyev, C.Məmmədquluzadə və M.Ə.Sabir xalqı qəflət yuxusundan oyatmaq üçün onu savadlandırmağa zalışırdılar. Onlar bu yolla xalqın yekdilliyinə nail olmağa çalışırdılar.

Beləliklə,iki- üz illüstrasiyanın təhlili nəticəsində aşağıdakı işlər ğürülür:
a)şagirdlərdə şeirlərin məzmununa uyğun əyani obrazlar yaranır;
b)əyani obrazlar və informasiyalar əsasında təfəkkür əməliyyatları həyata kezirilir;
c)şeir parzaları və ilüstrasiyalardan alınan informasiyalar ümumiləşdirilir;
z)şeirlər arasında və şeirlə illüstrasiyalar arasında əlaqə aşkara zıxarılır;
d)şeirlərin məzmunundakı əsas ideyalar azıqlanır;
e)şagirdlər gündəlik məişətdə (həyatda) işlədilən "yuxu", "yatanlar" ("yatmışlar"), "oyanmaq", "ayılmaq", "avamlıq yuxusu", "qəflət yuxusu" və.b. adi danışıq süzləri arxasında dərin məna durudğunun şahidi olurlar.
ə)illüstrasiyaların təhlili vasitəsilə 5 hekayənin faktları əlaqələndirilir və 1 ideya istiqamətində ümumiləşdirilir.

Bu cür iş sistemində şagirdlər illüstrasiyaları oxumağı bacarır, onlara bilik mənbəyi kimi yanaşmağı, öyrənirlər. Şagirdlər dərsliyin illüstrasiyalarının mətnin bir hissəsi, "şəkillə ifadə olunmuş mətn" olduğunu dərk edirlər.

## *ƏDƏBIYYAT*

1. Kazımov N. Məktəbdə müqayisə üzərində işin nəzəriyyəsi və təcrübəsi, Bakı, Maarif, 1972, 285 səh.
2. Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün "Tarix" proqramı, Bakı, 2000, 282 səh.
3. Mahmudov Y., Xəlilov R., Ağayev S. Ata yurdu, Bakı, Təhsil, 2004, 317 səh.
4. Vagin A. A. Orta məktəbdə tarixin tədrisi metodikası, Bakı, Maarif, 1968.
5. Герасимова Г.Г. Обучение истории в 4 классе, М.: Просвещения, 1976.
6. Пунский В.О. Азбука учебного труда, М.: Просвещения, 1988, 295 стр.
7. Шукина Г.И. Активизасия позновательной деятельности учащихся в учебном процессе, М.: Просвещения, 1979, 376 стр.
8. Шукина Г.И. Формирование познавательных интересов учащихся в процессе обучения, М.: Просвещения, 1962, 396 стр.

**НАРГИЗ МАМЕДОВА**

**ОРГАНИЗАЦИЯ РАБОТЫ С ИЛЛЮСТРАЦИЯМИ ПРИ ПРЕПОДАВАНИИ КУРСА «АТА ЮРДУ» В V КЛАССЕ**

В статье обосновывается актуальность проблемы. Приводятся оптимальные пути, методы и способы организации работы с иллюстрациями. Свои рассуждения и выводы автор подтверждает на примерах реальных уроков. Автор также показал как единое целое разные мысли и выводы, высказанные по указанной проблеме в научно-методических источниках, и современный опыт.

**NARGHIZ MAMMADOVA**

**THE ORGANIZATION OF WORK WITH ILLUSTRATIONS IN TEACHING OF "ATA YURDU" (FATHER LAND) IN THE 5TH FORM.**

There is justified the actuality of the problem in the article. There are given the most optimal ways, methods and means of the organization of work with illustrations. The author supports his conclusions with the lesson examples he gave (conducted, taught). The author gives the diversity of views and modern experience regarding the problem in the scientific – methodical literature in unity.

***Rəyçi: AMEA-nın müxbir üzvü Y.M.Mahmudov.***
***BDU Qədim dünya və orta əsrlər tarixi kafedrasının 07 mart 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №03).***